# Musiqi zövqünün formalaşdırılması



**Müsahibimiz Hacıqabul şəhər musiqi məktəbinin direktoru Şakir Hüseynovdur. O, rəhbərlik etdiyi kollektivin işindən, qazandığı uğurlardan və qarşılaşdığı problemlərdən danışır. Bütün bu qeydləri diqqətinizə çatdıracağıq. Amma əvvəlcə Şakir müəllim haqqında müəyyən məqamlara nəzər yetirək.**

Hüseynov Şakir Hüseynağa oğlu əmək fəaliyyətinə 1983-cü ildən- A.Zeynallı adına musiqi texnikumunu bitirdikdən sonra başlamışdır. Şirvan şəhər uşaq musiqi məktəbində çalışmışdır. 1990-cı ildə Hacıqabul uşaq musiqi məktəbinin fəaliyyətə başlaması ilə Şakir müəllimin həyatında müəyyən dönüş yaranmışdı. O, bu məktəbin dərs hissə müdiri təyin edilmişdir. Şirvanda çalışarkən ali təhsil almağı da unutmamış, Milli Konservatoriyanı da bitirmişdir. 2001-ci ildən Hacıqabul şəhər uşaq musiqi məktəbinin direktorudur.

Söhbət zamanı Ş.Hüseynov müxbirimizə aşağıdakıları söylədi:

- 1990-cı ildə məktəbdə 2 şöbə (fortepiano və xalq çalğı alətləri) fəaliyyət göstərirdi. İlk vaxtlar 60 şagirdin musiqi təhsili ilə 12 nəfər müəllim məşğul olurdu.

Hazırda musiqi məktəbində 6 ixtisas (fortepiano, skripka, tar, kamança, qarmon və nağara) üzrə 220 şagird musiqi təhsili alır. Onların təlim-tərbiyəsi ilə 42 müəllim məşğul olur. Onlardan 7 nəfəri ali ixtisas təhsilli, 35 nəfəri isə orta ixtisas təhsillidir. Məktəbdə tədrisin əsasını Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin gənc nəslin musiqi təhsilinin inkişafı ilə əlaqədar təlimat və göstəriciləri təşkil edir.

Hər tədris ilinin əvvəlində məktəb üzrə tədbirlər planı tərtib olunur ki, burada da bayramlarla əlaqədar tədbirlər, rayon tədbirləri, yubileylər və ədəbi-bədii gecələr öz əksini tapır.

Qeyd etmək istəyirəm ki, 2009-cu il ərzində musiqi məktəbində bir çox tədbirlər həyata keçirilmişdir. Belə ki, 20 yanvar faciəsilə əlaqədar "Qanlı Yanvar" adlı ədəbi-bədii gecə, Xocalı faciəsinin ildönümü ilə əlaqədar "Xocalı haraya çağırır bizi" adlı ədəbi-bədii kompozisiya, 8 mart Beynəlxalq Qadınlar günü, Novruz bayramı ilə əlaqədar musiqili proqramı 31 mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı tədbirlər, 28 may Azərbaycan Cümhuriyyətinin 91-ci illiyi ilə və 15 iyun Milli Qurtuluş günü münasibətilə musiqili kompozisiyalar hazırlanmışdır.

Bunlardan əlavə əməkdar incəsənət xadimi, bəstəkar Ramiz Mirişlinin 75 illiyi və Asəf Zeynallının yaradıcılığı ilə əlaqədar konsert proqramları hazırlanmış və onların əsərlərindən ibarət ifalar səslənmişdir. Eyni zamanda ulu öndər Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü və Uşaq ili ilə əlaqədar şəhər klubunda ictimaiyyət qarşısında böyük konsertlər təşkil olunmuşdur.

Məktəbin müəllimlərindən ibarət ansambl bayramlar ərəfəsində şəhərdə yerləşən "N" saylı hərbi hissədə mütəmadi olaraq əsgərlər qarşısında konsertər təşkil edir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən müsabiqələrdə şagirdlərimizin uğurlu çıxışları fərəh doğurur. Hesabat ilində keçirilən bir çox müsabiqələrdə, o cümlədən Bakı şəhərində keçirilən simli alətlər üzrə müsabiqədə skripka ixtisası üzrə III sinif şagirdi Baxşıyev Nadim İsrayıl oğlu gözəl ifası ilə münsiflər heyətinin rəğbətini qazanmışdır. Xalq çalğı alətləri ifaçılığı üzrə VI Respublika müsabiqəsində tar ixtisası üzrə məktəbin III sinif şagirdi Baxşıyev Səbuhi Akif oğlu müsabiqənin III dərəcəli diplomuna layiq görülmüşdür.

2009-cu ilin may ayında Yevlax şəhərində keçirilən milli musiqi alətləri ifaçılarının IV Respublika müsabiqəsində zərb alətləri üzrə rayonun gənc ifaçısı Məmmədov Bəxtiyar Rahib oğlu müsabiqənin həvəsləndirici mükafatına layiq görülmüşdür. Bütün bu müvəffəqiyyətli çıxışlarımız Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qiymətləndirilmişdir. 2008-ci ildə məktəbimiz müsabiqələrdə yüksək səviyyədə şagirdlər hazırladığına görə Mədəniyyət və Turizm Nazirliyinin Fəxri fərmanına layiq görülmüşdür.

Son vaxtlar Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müxtəlif adda dərsliklər və musiqi alətləri (1 tar, 1 qarmon, 1 kamança) verilmişdir. Məktəbimiz mədəniyyət və turizm şöbəsi tərəfindən yeni inventarlarla təmin edilmişdir. Məktəbdə musiqi alətləri və müvafiq dərs vəsaitilə təminatımız pis deyildir. 12 ədəd fortepiano, 1tar, 1 kamança, 2 qarmon və 2 nağara alətlərimiz var. Qazandığımız göstəricilər bizi yeni-yeni uğurlara səsləyir. Bu işdə müəllimlərdən Rafiq Məmmədov, Oktay Cəfərov, Vüsalə Məmmədova, Cahan Nağızadə, Elnurə Məhərrəmova, Nigar Nəsirova və Böyükağa Ağayev öz bacarıqları ilə şagird hazırlığına və məktəbin müvəffəqiyyət qazanmasına yaxından köməklik edirlər.

**İnanıram ki, müəllimlərimizin köməyilə məktəbimiz bundan sonra hələ nə qədər uğur qazanacaqdır...**

**G.ƏKBƏROVA**

